# Heydər Əliyev və milli mətbuat

**Vüqar Əhməd**
Filologiya elmləri doktoru, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: vuqar.ehmed.63@mail.ru

**Annotasiya**. Məqalədə Ümummilli lider Heydər Əliyevin Azərbaycan milli mətbuatının inkişafındakı müstəsna xidmətlərindən bəhs edilir. Ulu Öndərin 40 illik məruzə və çıxışlarında, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində mətbuat haqqında olduqca yüksək fikirlər yer tutur. Heydər Əliyev dəfələrlə öz çıxışlarında qeyd etmişdir ki, mətbuat da ədəbiyyat kimi xalqımıza böyük faydalar gətirir və gətirməkdədir. Heydər Əliyev, eyni zamanda, milli mətbuatımızın qarşısına xalqının zəkasını düşmənlərimizin uydurduğu təsəvvürlərin buxovundan xilas etməyi və vətəndaşlıq hüquqlarını başa salmağı başlıca məqsəd kimi qoymuşdu. Çünki maarifçiliyin əsasında milli şüurun dərki, tarixin tanınması, dini və milli dəyərlərin qorunması dururdu.
Məqalədə qeyd olunur ki, Ümummilli lider Heydər Əliyevin Azərbaycan milli mətbuatına, söz azadlığına verdiyi yüksək dəyər bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.
**Açar sözlər:** Heydər Əliyev, milli mətbuat, "Əkinçi" qəzeti, "Molla Nəsrəddin" jurnalı

**Məqalə tarixçəsi:** göndərilib – 01.09.2023; qəbul edilib – 15.09.2023

# Heydar Aliyev and national press

**Vugar Ahmad**
Doctor of Philological Sciences, professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: vuqar.ehmed.63@mail.ru

**Abstract**. In the article is dealt with the exceptional services of National Leader Heydar Aliyev in the development of Azerbaijani national press. National Leader Haydar Aliyev, in his 40-year reports and speeches, and interviews to the media expressed favorable opinions about the press. Heydar Aliyev repeatedly stated in his speeches that the press like literature has brought and continues to bring great benefits to our people. Heydar Aliyev at the same time put as a main goal for our press to save the intelligence of our people from the ideas that our enemies fabricated and to explain the rights of citizenship. Because enlightenment was based on national consciousness, recognition of history, protection of religious and national values.
In the article it is noted that high value esteemed by National Leader Heydar Aliyev to Azerbaijani national press and freedom of speech continues successfully by Ilham Aliyev, President of the Republic of Azerbaijan today.
**Keywords:** Heydar Aliyev, national press, the newspaper "Akinchi", "Molla Nasraddin" magazine

**Article history:** received – 01.09.2023; accepted − 15.09.2023

## Giriş / *Introduction*

Böyük düha sahibi olan Heydər Əliyev çoxcəhətli ictimai-siyasi fəaliyyəti ilə yanaşı, Azərbaycan xalqının ədəbi-mədəni həyatı ilə bağlı mühüm problemlərə də xüsusi diqqət və qayğı ilə yanaşırdı. Ümummilli lider 150 ilə yaxın böyük bir təkamül prosesi keçən Azərbaycan milli mətbuatını həmişə diqqət mərkəzində saxlamışdır.

Heydər Əliyev Azərbaycana rəhbər gələndən sonra Azərbaycan ədəbiyyatında, eyni zamanda, milli mətbuatında əsasən milli-estetik fikrin inkişafı əsas rol oynamağa başladı. Mətbuat nümayəndələrinin qarşısına müasir tarixi-tipoloji tədqiqat üsulunun elmi və nəzəri prinsiplərini işləmək vəzifəsi qoyuldu. Bu da öz növbəsində, onların qarşısında imkanlar açdı. Tarixi və milli fərdiliyin müqayisəli-elmi kontekstdə, xalqın istəyilə qarşılıqlı ünsiyyət prosesində çalışmağa şərait yaratdı.

## Əsas hissə / *Main Part*

Ulu Öndər milli mətbuatımıza yüksək dəyər verərək deyir: "Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. Bu gün əsas vəzifə onun geniş imkanlarından milli dövlət quruculuğunda, demokratik dəyərlərin bərqərar edilməsində, sivil vətəndaş cəmiyyətinin formalaşmasında, islahatların həyata keçirilməsində, insanların mənəvi saflaşmasında səmərəli istifadə etməkdən ibarətdir. Mətbuat həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideallar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir" [1, s.185].

Zəngin və çoxəsrlik tarixə, yüksək mədəniyyətə malik olan Azərbaycan xalqının böyük inkişaf yolu keçərək yüksək sivilizasiyaya çatması, ilk mətbu orqanımız olan "Əkinçi" qəzetinin nəşrə başlaması Şərq dünyasında milli oyanışın təzahürü kimi böyük əhəmiyyət kəsb etdi. Azərbaycan milli mətbuatının ilk cığırdaşı olan "Əkinçi" qəzeti çağdaş dövrdə fəaliyyət göstərən çoxsaylı mətbuatımızın ideoloji xəttini müəyyənləşdirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qəzetin təsisçisi Həsən bəy Zərdabinin milli mətbuatımıza verdiyi töhfələrdən bəhs edərək demişdir: "Azərbaycanda sosial-mədəni həyatın on doqquzuncu əsrin ikinci yarısından etibarən sürətli canlanmasında və ictimai fikrin maarifçi-demokratik ideyalarla zənginləşməsində Həsən bəy Zərdabinin müstəsna xidmətləri vardır. Zərdabi yaradıcısı, təşkilatçısı və redaktoru olduğu "Əkinçi" qəzetini doğma ana dilində nəşr etdirməklə milli mətbuatın bünövrəsini qoymuş, dövrünün ziyalılarını bu qəzet ətrafında birləşdirərək taleyüklü mühüm vəzifələrin uğurla həyata keçirilməsində misilsiz rol oynamışdır" [4].

Keçən əsrin əvvəllərində nəşrə başlayan mətbuat orqanlarının milli dövlətçiliyimizin qurulması və formalaşmasında müstəsna rolu vardır.

"XX əsrin 20-ci ili bizim həm tariximizin, həm istiqlalımızın, həm də dövlətçiliyimizin şərəf zirvəsi idi. Bu zaman milli mətbuat, milli ideologiya, maarif və mədəniyyət yenicə öz məcrasına düşmüşdür. Milli mətbuatımızın "Əkinçi"dən başlayan təşəkkülü yüzlərlə mətbu orqan yaradaraq "Molla Nəsrəddin" və "Füyuzat"da zirvə məqamına yüksəldi" [5, s.122].

Ulu öndər milli mətbuatımızın inkişafında, azad və sərbəst fəaliyyətində ana dilinin böyük əhəmiyyət kəsb etdiyini xüsusilə diqqət mərkəzində saxlayırdı. Buna görə də Heydər Əliyev bütün dövrlərdə ana dilimizə diqqət və məhəbbətlə yanaşıb. Hələ 1978-ci ildə sovet rejiminin hökm sürdüyü, totalitar ideologiyanın hegemonluğu dövründə Heydər Əliyevin təkidi ilə Azərbaycan Respublikasının Konstitusiyasına Azərbaycan dili dövlət dili kimi daxil edildi. Ulu öndər bu hadisəni belə xatırlayır: "Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük. Hələ 1978-ci ildə qəbul olunmuş konstitusiyada, bir çox başqa respublikalardan fərqli olaraq Azərbaycan dili haqqında maddə yazdıq və Azərbaycanın dövlət dilinin Azərbaycan dili olduğunu orada göstərdik" [2, s.216].

Həqiqətən də, Heydər Əliyevin uğrunda mübarizə apardığı problemlərdən biri ana dili problemi idi. O, ana dilinin taleyinə ana vətənin taleyi kimi baxırdı.

Ulu öndərin heyrətamiz mənəvi irsində mətbuatın ayrıca bir yeri vardır. Onun 40 illik məruzə və çıxışlarında kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində mətbuat haqqında olduqca yüksək fikirlər yer tutur. Heydər Əliyev dəfələrlə öz çıxışlarında qeyd etmişdir ki, mətbuat da ədəbiyyat kimi xalqımıza böyük faydalar gətirir və gətirməkdədir.

Heydər Əliyev eyni zamanda milli mətbuatımızın qarşısına xalqının zəkasını düşmənlərimizin uydurduğu təsəvvürlərin buxovundan xilas etməyi, ictimai həyatda onun mövqeyini təmin etməyi, vətəndaşlıq hüquqlarını başa salmağı başlıca məqsəd kimi qoymuşdu. Çünki maarifçiliyin əsasında milli şüurun dərki, tarixin tanınması, dini və milli dəyərlərin qorunması dururdu.

XX əsrin sonunda Azərbaycanda baş verən siyasi sarsıntılar, Azərbaycan ərazilərinin erməni vandalları tərəfindən işğalı, Azərbaycan xalqına qarşı soyqırım siyasəti, Moskvadakı sovet rəhbərlərinin Azərbaycana qarşı haqsızlıqları təbii ki, Azərbaycan ədəbiyyatının və mətbuatının da tənəzzülə uğraması ilə nəticələndi. Yazarların, şairlərin, jurnalistlərin sözünü eşidən olmadı, həqiqəti söyləyənləri susdurdular. Heydər Əliyevin Azərbaycana qayıdışı ilə hər şey kökündən dəyişdi. Heydər Əliyevin siyasi nüfuzu, beynəlxalq qanunları mükəmməl şəkildə bilməsi, cəsarəti bir sıra gizlədilmiş həqiqətləri üzə çıxarmağa başladı. Bu da öz növbəsində mediaya müsbət təsirini göstərdi. Ədəbiyyata, mədəniyyətə, mətbuata azadlıq verildi. Daha həqiqəti söyləyənlər susdurulmurdu. Heydər Əliyevin gəlişi ilə Azərbaycan tam müstəqillik əldə etdi, necə deyərlər, özü öz ağası oldu. Bazar iqtisadiyyatının güclü bir sıçrayışla inkişafı mədəniyyət sahəsində də özünü göstərdi. Azərbaycan ədəbiyyatında və mətbuatında yeniliklər yarandı, tərəqqinin hər tərəfdən öz qapılarını Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, eyni zamanda mətbuatının üzünə açması ilə əlaqədar ədəbi mühit sələflərin yaratdığı ənənələrə böyük hörmət və qayğı ilə yanaşdı. Eyni zamanda uzun illərin təzyiq mühiti, sarsıntılar epoxasından sonra birdən-birə kəskin dəyişmələr, gözlənilməz dözümlər dövrünün ağuşuna düşmüş milli həyatın ilkin çarpışmaları, buxovsuz azadlıq eşqi, çaxnaşmalar, ziddiyyətlər Heydər Əliyevin qətiyyəti ilə tarixi-mədəni amillər kimi şərtləndi.

Uzun illər gələcəyə ümidlə baxan milli mətbuat nümayəndələrimiz daim axtarışlar apararaq dövrün problemlərini, gərginliklərini, sıxıntılarını, eyni zamanda ümidlə açılacaq sabahlardakı günəş şəfəqlərini öz məqalələrində əks etdirməyə nail oldular. Onların yazıları yeni məzmun kəsb edərək məqam, fikir, başlanğıc, mənəvi-əxlaqi mövqe (meyar, dəyərləndirmə) kimi dəyərləri sərgiləməyə müvəffəq oldu. Mətbuat işçilərinin əksəriyyətinin yazıları publisist, epik məna siqləti ilə nəfəs almağa başladı. Onların yazıları hansısa mücərrəd estetik qəlib və ölçülərdə deyil, vətəndaş çılğınlığı, publisist deyimi, aktuallığı ilə özünü göstərməyə başladı.

Onlar artıq öz yaradıcılıqlarını əxlaq normaları üstündə köklədilər və yaşadıqları dövr nə qədər təlatümlü, fırtınalı, qasırğalı, sarsıntılı olsa da, onların yaradıcılığının kökünü, qayəsini, mayəsini zəngin əxlaq təşkil etdi və bu genetik saflığın işığı ilə yazıb-yaratmağa başladılar.

Ölkəmizdə kütləvi informasiya vasitələrinin azad olması haqqında müddəa Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir. Azərbaycan, hələ 1998-ci ildə, MDB məkanında birinci olaraq, senzuranı ləğv etmişdir. 2000-ci ildə Mətbuat Nazirliyinin ləğv olunması KİV-lərin fəaliyyətində söz azadlığının təmin edilməsinə yönəlmiş çox mühüm addım idi. 2001-ci ildə qəbul edilmiş, beynəlxalq ekspertlərin fikrincə, çox demokratik və Avropa standartlarına müvafiq olan "Kütləvi informasiya vasitələri haqqında" Qanun medianın fəaliyyəti üçün qanunverici bazadır. 2005-ci ildə "İnformasiya azadlığı haqqında" qanun qəbul edilmişdir. Azərbaycanda nəşr edilən materialların və yayımlanan verilişlərin məzmununa total nəzarət yoxdur. Bu sahədə plüralizmin bərqərar olmasına belə bir fakt da dəlalət edir ki, hazırda Azərbaycanda 30-dan çox gündəlik və yüzlərlə həftəlik qəzet buraxılır, respublika əhəmiyyətli 9 telekanal, 15-ə yaxın regional telekanal verilişlərini yayır, internetdən sərbəst istifadə edilir. Bütün bunlar müstəqil mətbuat modelinin əsas elementləridir.

Bununla bərabər, qeyd etməliyəm ki, Azərbaycanda KİV ilə dövlətin münasibətləri sintezləşdirilmiş model əsasında qurulur. Bu model dünyada ümumi qəbul edilmiş "dövlət-mətbuat"

qarşılıqlı münasibətlərinin bir neçə modelinin elementlərini özündə cəmləşdirir: mətbuatın sosial məsuliyyət modeli, əsasən milli dövlət qurmaqda olan gənc müstəqil ölkələrdə tətbiq edilən "inkişaf modeli" və s.

Sosial məsuliyyət modeli medianın cəmiyyət qarşısında müəyyən öhdəliklərini nəzərdə tutur: Yüksək peşəkar standartlara uyğunluq, informativlik, düzgünlük, dəqiqlik, obyektivlik. Bu model müəyyən mənada iki prinsipi birləşdirir: medianın azadlığı və cəmiyyət qarşısında borcu. Bu, dövlət ilə mətbuat arasında müstəqil ictimai təsisatlar vasitəsilə tənzimlənir. Azərbaycanda belə bir təsisat rolunda Mətbuat Şurası çıxış edir. Sosial məsuliyyət modelində KİV-lərə ictimai rəy, peşə etikası vasitəsilə nəzarət edilir. Bu baxımdan Azərbaycanda qəbul edilmiş Jurnalistin Etik Davranış Kodeksi mətbuat işçilərindən təkcə yüksək peşəkar vərdişlər deyil, həm də düzgünlük və qərəzsizlik tələb edir, müəyyən mənada KİV-lərin tənzimləyicisi rolunu oynayır.

Azərbaycan dövləti kütləvi informasiya vasitələri sahəsində də məqsədyönlü və ardıcıl siyasət yeridir, modernləşmə və qlobal informasiya məkanına inteqrasiya xəttini ölkənin milli maraqları ilə uğurla əlaqələndirir.

Dövlətimizin medianın inkişafı sahəsində atdığı bütün addımlar hərtərəfli düşünülmüş və gələcəyə istiqamətləndirilmişdir. 2008-ci ildə kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyasının qəbul edilməsi, Azərbaycan Respublikası Prezidenti yanında KİV-lərə Dövlət Dəstəyi Fondunun təsis edilməsi buna əyani sübutdur. Hər il qəzet və jurnal redaksiyalarının, informasiya agentliklərinin inkişafı üçün sanballı maliyyə vəsaiti ayrılır. KİV işçilərinin sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş tədbirlər görülür.

Ulu Öndər mətbuatı və söz azadlığını daim diqqət mərkəzində saxlayırdı. O, jurnalistlərlə müntəzəm görüşlər keçirir, onların bütün suallarını cavablandırır, təklif və müraciətlərinə həssaslıqla yanaşırdı.

Ulu öndər Heydər Əliyev milli mətbuatımızın keçdiyi şərəfli və mübarizələrlə dolu tarixi inkişaf mərhələlərini öz dəyərli məruzə və çıxışlarında həmişə qürurla xatırlamış və Şərq aləmində böyük bir hadisə kimi dəyərləndirmişdir. Xüsusilə də, XX əsrin əvvəllərində çox böyük sınaqlardan keçən, ciddi təqib və təhdidlərlə üzləşən, ilk satirik mətbuatımız olan "Molla Nəsrəddin" jurnalının redaktoru Cəlil Məmmədquluzadənin misilsiz roluna böyük dəyər verərək yazır:

"Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, publisist, filosof, mütəfəkkir, yazıçı, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır. Əsrimizin əvvəllərində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün, əsrimizin sonunda bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır... Cəlil Məmmədquluzadə dühası "Molla Nəsrəddin" jurnalında öz əksini tapdı. "Molla Nəsrəddin", onun vasitəsilə Cəlil Məmmədquluzadə və jurnalın işinə cəlb olunmuş Azərbaycanın başqa mütəfəkkir adamları xalqımızın milli şüurunun formalaşmasında, milli oyanışda böyük rol oynadılar". Cəlil Məmmədquluzadə Azərbaycan xalqının milli dirçəlişində əvəzsiz rol oynamışdır [3, s.240].

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da məhz Ulu öndərin Azərbaycan mətbuatı ilə bağlı qəbul etdiyi dövlət əhəmiyyətli sənədlərlə hüquqi qiymətini ala bildi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistan SSRİ-nin tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitision qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi idarəetmə

Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazıçılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu. Vətənimizin paytaxtında imperiyanın törətdiyi soyqırıma etiraz səsini ucaldaraq şovinist bir sistemin partiya biletindən imtina etməsi, mətbuat konfransı keçirərək Azərbaycanın haqq səsini bütün dünyaya bəyan etməsi kimi faktlar Heydər Əliyevin yüksək vətənpərvərliyindən xəbər verməklə yanaşı, həm də ən çətin situasiyalarda mətbuata inamını ifadə edən mühüm fakt kimi diqqəti cəlb edir.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı. Bu ədalətsiz işğallar nəticəsində bir milyon soydaşımız qaçqına, köçkünə çevrildi, iyirmi faiz torpaqlarımız otuz il erməni vandallarının işğalı altında qaldı. Azərbaycan xalqının üzləşdiyi bu ağır və çətin situasiyada öz haqq səsimizi bütün dünyaya biz mətbuat vasitəsilə çatdıra bildik.

## Nəticə / *Conclusion*

Bu gün Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənabları Ümummilli lider Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirir. İlham Əliyevin rəhbərliyilə aparılan olduqca uğurlu islahatlar, əldə olunan yüksək nəticələr onun Azərbaycana rəhbərlik eləməyə başladığı ilk anlardan müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratdı. Prezident İlham Əliyev cənablarının xalqın milli-mənəvi, mədəni və elmi-intellektual potensialının güclənməsi üçün hər sahədə uğurlu siyasət yürüdür. Mirzə Cəlil irsi yenə diqqət mərkəzindədir. Prezident İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli Sərəncamına uyğun olaraq Cəlil Məmmədquluzadənin “Əsərləri” dörd cilddə nəşr olunmuşdur. 2006-cı ildə “Molla Nəsrəddin” jurnalının nəşrə başlanmasının 100, 2016-cı ildə 110 illiyinin, 2019-cu ildə C.Məmmədquluzadənin 150 illik yubileyinin keçirilməsi barədə Prezident Sərəncamı Ulu öndərin böyük siyasətinin uğurlu davamıdır.

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş “Molla Nəsrəddin”lə bağlı nəşrlər bu gün də uğurla davam etdirilir. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 3 iyul 2020-ci il tarixli qərarı ilə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Mətbuat Tarixi və publisistika şöbəsində “Molla Nəsrəddin” ensiklopediyası” nəşrə hazırlanmış və çap olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan milli mətbuatına, söz azadlığına verdiyi yüksək dəyər bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## Ədəbiyyat /*References*


1. Heydər Əliyev və mətbuat. I cild (dörd cilddə). – Bakı: Nurlar, 2000.
2. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. – Bakı: Azərbaycan Universiteti nəşriyyatı. 2002.
3. Əliyev, Heydər. Mirzə Cəlilin 125 illik yubileyində nitq. Ədəbiyyatın yüksək borcu və amalı. – Bakı: Ozan, 1999.
4. Əliyev, İlham. Həsən bəy Zərdabinin 170 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı. – Bakı şəhəri, 4 iyun 2022-ci il.
5. Əhmədova, Salatın. Heydər Əliyev və ədəbi-tarixi proses. – Bakı: Elm, 2013.

## Гейдар Алиев и национальная пресса

**Вугар Ахмед**
Доктор филологических наук, профессор
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: vuqar.ehmed.63@mail.ru

**Резюме.** В статье говорится о неоценимых заслугах общенационального лидера Гейдара Алиева в деле развития национальной печати. Важное место занимают доклады и выступления, сделанные великим лидером за 40 лет, высказанные в интервью массовым органам печати глубокие суждения о прессе. В своих выступлениях Гейдар Алиев неоднократно отмечал, что, наряду с литературой, пресса также приносит большую пользу нашему народу, а также отмечал, что перед нашей национальной печатью стоит основная задача спасти разум народа от туманных измышлений наших врагов, объяснить ему свои гражданские права, потому что осмысление национального сознания, познание истории, сохранение религиозных и национальных ценностей составляют основу просвещения.
В статье отмечается, что высокая оценка национальной печати, свободы слова, данная общенациональным лидером Гейдаром Алиевым, и сегодня успешно подтверждается Президентом нашей Республики Ильхамом Алиевым.
**Ключевые слова:** Гейдар Алиев, национальная пресса, газета «Пахарь», журнал «Молла Насреддин»